# və onlar üçün Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) aldığı şəkildə dəstəmaz aldı

Yəhya bin Umara Əl-Məzinidən belə dediyi rəvayət edilir: Amr ibn Əbu Həsənin Abdullah ibn Zeyddən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dəstəmazı haqqında soruşduğunun şahidi oldum.O, bir qab su istədi və onlar üçün Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) aldığı şəkildə dəstəmaz aldı. Belə ki o, əlinə qabdan su tökdü və əllərini üç dəfə yudu, sonra əlini qabın içinə saldı, ondan üç ovuc götürüb ağzını yaxaladı, burnuna su çəkdi və sonra suyu çölə çıxardı. Sonra əlini qaba salıb üzünü üç dəfə yudu, sonra iki dəfə əllərini dirsəklərə qədər yudu, sonra əlini qaba salaraq başın önündən arxaya və arxadan önə olmaqla, başına bir dəfə məsh çəkdi, sonra ayaqlarını topuğa qədər yudu.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Abdullah bin Zeyd (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) necə dəstəmaz aldığını hərəkətlərlə göstərərək izah etdi. və kiçik bir qab su istədi, Əvvəlcə əllərini yumaqla başladı, sonra qabı əydi və bir az su tökdü və əllərini üç dəfə qabın kənarında yudu.  Sonra əlini qabın içinə saldı, ondan üç ovuc su götürdü. Hər ovucda ağzını yaxaladı, burnuna su çəkdi və sonra suyu çölə çıxardı.  Sonra qabdan bir ovuc su götürüb üzünü üç dəfə yudu. Sonra qabdan bir ovuc su götürdü və iki dəfə əllərini dirsəklərə qədər yudu.  Sonra əllərini qabın içinə saldı və başının ön hissəsindən başlayaraq başının arxasına- boynun yuxarı hissəsinə çatana qədər əlləri ilə başına məsh çəkdi. Sonra isə əllərini geri qaytarıb başladığı yerə çatana qədər məsh çəkdi. Sonra ayaqlarını topuqlarla birlikdə yudu.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee